# Sıxıntı zamanı ediləcək dualar

((حَسْبِيَ اللهُ وَنِعْمَ الْوَكِيل))

"Allah mənə yetər. O, nə gözəl qoruyandır!"[1]

((إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ، اللَّهُمَّ أْجُرْنِي فِي مُصِيبَتِي وَأَخْلِفْ لِي خَيْرًا مِنْهَا))

"Biz, Allaha məxsusuq və Onun hüzuruna qayıdacağıq! Allahım, başıma gəlmiş bu müsibətə görə mənə savab yaz və mənə bundan xeyirlisini nəsib et!"[2]

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ الْعَظِيمُ الْحَلِيمُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ الْعَرْشِ الْعَظِيمِ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ السَّمَاوَاتِ وَرَبُّ الأَرْضِ وَرَبُّ الْعَرْشِ الْكَرِيمِ))

"Əzəmətli və Həlim Allahdan başqa *haqq* məbud yoxdur! Əzəmətli Ərşin Rəbbi olan Allahdan başqa *haqq* məbud yoxdur! Göylərin Rəbbi, yerin Rəbbi və kəramətli Ərşin Rəbbi olan Allahdan başqa *ibadətə layiq haqq* məbud yoxdur!"[3]

((اللَّهُ اللَّهُ رَبِّي لاَ أُشْرِكُ بِهِ شَيْئاً))

"(Rəbbim) Allahdır, Allah! Və mən heç bir şeyi ona şərik qoşmuram!"[4]

((اللَّهُمَّ رَحْمَتَكَ أَرْجُو، فَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ، وَأَصْلِحْ لِي شَأْنِي كُلَّهُ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ))

---

[1] Səhih əl-Buxari, 4563.
[2] Səhih Muslim 2/632.
[3] Səhih əl-Buxari, 7/154; Səhih Muslim, 4/2092.
[4] Sunən Əbu Davud, 2/87; Səhih ibn Macə, 2/335.

“Allahım, Sənin mərhəmətini diləyirəm! Məni bir göz qırpımı belə başlı-başına buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa *ibadətə layiq haqq* məbud yoxdur!”[1]

((لاَ إِلَهَ إِلاَّ أَنْتَ سُبْحَانَكَ إِنِّي كُنْتُ مِنَ الظَّالِمِينَ))

“Səndən başqa *ibadətə layiq haqq* məbud yoxdur. Sən pak və müqəddəssən! Həqiqətən, mən zalımlardan olmuşam!”[2]

((اللَّهُمَّ إِنِّي عَبْدُكَ، ابْنُ عَبْدِكَ، ابْنُ أَمَتِكَ، نَاصِيَتِي بِيَدِكَ، مَاضٍ فِيَّ حُكْمُكَ، عَدْلٌ فِيَّ قَضَاؤُكَ، أَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ، سَمَّيْتَ بِهِ نَفْسَكَ، أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ، أَوْ عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ، أَوِ اسْتَأْثَرْتَ بِهِ فِي عِلْمِ الْغَيْبِ عِنْدَكَ، أَنْ تَجْعَلَ الْقُرْآنَ رَبِيعَ قَلْبِي، وَنُورَ صَدْرِي، وَجَلاَءَ حُزْنِي، وَذَهَابَ هَمِّي))

“Allahım, mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam! Məni idarə etmək Sənin əlindədir. Barəmdə verdiyin hökm yerinə yetəndir. Mənə yazdığın tale ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın, Özünə aid olan hər bir adla yalvarıram ki, Quranı qəlbimin baharı və köksümün nuru, üzüntümün aradan qalxması və kədərimin getməsi üçün səbəb et!”[3]

((الحَمْدُ لِلّهِ عَلَى كُلِّ حَال))

“Hər bir hala görə Allaha həmd olsun!”[4]

---

[1] Sunən Əbu Davud, 4/324; Səhih Əbu Davud, 3/959.

[2] Sunən ət-Tirmizi, 5/529; Səhih ət-Tirmizi, 3/168.

[3] Musnəd imam Əhməd, 3712; Silsilə əl-Əhadis əs-Səhihə, 199.

[4] Hakim, əl-Mustədrək 1/499; Səhihul-Cami, 4/201.

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الرِّضَا بَعْدَ الْقَضَاءِ))

"Allahım, Səndən, başıma gələn qəzavü-qədərdən sonra ondan razı qalmağımı diləyirəm."[1]

((رَبِّ أَعِنِّي وَلاَ تُعِنْ عَلَيَّ، وَانْصُرْنِي وَلاَ تَنْصُرْ عَلَيَّ، وَامْكُرْ لِي وَلاَ تَمْكُرْ عَلَيَّ، وَاهْدِنِي وَيَسِّرِ الْهُدَى إِلَيَّ، وَانْصُرْنِي عَلَى مَنْ بَغَى عَلَيَّ، رَبِّ اجْعَلْنِي لَكَ شَكَّارًا، لَكَ ذَكَّارًا، لَكَ رَهَّابًا، لَكَ مِطْوَاعًا، لَكَ مُخْبِتًا، إِلَيْكَ أَوَّاهًا، مُنِيبًا، رَبِّ تَقَبَّلْ تَوْبَتِي، وَاغْسِلْ حَوْبَتِي، وَأَجِبْ دَعْوَتِي، وَثَبِّتْ حُجَّتِي، وَاهْدِ قَلْبِي، وَسَدِّدْ لِسَانِي، وَاسْلُلْ سَخِيمَةَ قَلْبِي))

"Ey Rəbbim, mənə kömək et, əleyhimə olan işlərdə heç kəsə kömək etmə. Mənə qələbə bəxş et, heç kəsə mənim üzərimdə qələbə qazandırma. Mənə düşmənlərimə hiylə qurmağa kömək ol, başqasının mənə hiylə qurmasına yol vermə. Mənə hidayət ver və mənim üçün doğru yola yönəlməyi asanlaşdır. Mənə təcavüz edənə qalib gəlməyimə yardım et. Ey Rəbbim, məni yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız Səndən qorxan, yalnız Sənə itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bir bəndə et. Ey Rəbbim, mənim tövbəmi qəbul et, günahlarımı yu, duamı qəbul et, dəlilimi möhkəmləndir, qəlbimi haqqa yönəlt, dilimi doğruluğa öyrət və qəlbimin qara ləkəsini yox et!"[2]

Əlixan Musayev
17.06.2023

[1] Musnəd İmam Əhməd, 4/364; Səhih ən-Nəsai, 1/281.
[2] Sunən ət-Tirmizi, 3551; Səhih əl-Ədəb əl-Mufrad, 517.